**Azərbaycan Respublikası Ailə Məcəlləsinin tətbiqi ilə əlaqədar bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

«Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının birinci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Vətəndaşlıq vəziyyəti aktlarının qeydində dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən əsas müddəalar», «Akt kitablarının saxlanması qaydası və müddətləri» və «Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarının formaları və bu kitablardakı qeydlər əsasında verilən şəhadətnamələrin formaları» təsdiq edilsin (əlavə olunur).

2. «Vətəndaşlıq vəziyyəti aktlarının qeydlərini dəyişmək, bərpa və ləğv etmək qaydasını, akt kitablarının saxlanması qaydasını və müddətlərini müəyyən edən Əsas qaydaların təsdiq olunması haqqında» SSRİ Nazirlər Sovetinin 1976-cı il 10 dekabr tarixli, 1006 nömrəli qərarı barəsində» Azərbaycan SSR Nazirlər Sovetinin 1976-cı il 25 dekabr tarixli 403 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 1 mart 2001-ci il
52

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2001-ci il 1 mart tarixli 52 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Vətəndaşlıq vəziyyəti *akt qeydlərində* dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən**[1]

**ƏSAS MÜDDƏALAR**

Bu əsas müddəalar Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin ~~rayon (şəhər)~~ qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri (bundan sonra — qeydiyyat şöbələri və konsulluq idarələri) tərəfindən vətəndaşlıq vəziyyəti *akt qeydlərində* dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edir.[2]

**I. Vətəndaşlıq vəziyyəti *akt qeydlərində* dəyişiklik qaydası**

1. Vətəndaşlıq vəziyyəti *akt qeydində ərizə əsasında dəyişiklik* edilməsi, kifayət qədər əsaslar olduqda və aidiyyəti şəxslər arasında mübahisə olmadıqda ərizə verən *şəxsin seçdiyi, məhkəmə qətnaməsi əsasında isə bu barədə qətnamənin çıxarıldığı yer üzrə* qeydiyyat şöbələri və konsulluq idarələri tərəfindən həyata keçirilir.[3]

2. Aidiyyəti şəxslər arasında mübahisə olduqda *akt qeydində dəyişiklik* məhkəmənin qətnaməsi əsasında aparılır.[4]

3. Vətəndaşlıq vəziyyəti *akt qeydlərində* dəyişikliklər aşağıdakı hallarda edilir:[5]

övladlığa götürmə ilə əlaqədar övladlığa götürülənin adı, atasının (anasının) adı, soyadı, doğulduğu yer və doğum tarixi dəyişdirildikdə;

nikahın pozulması və nikahın etibarsız sayılması ilə əlaqədar ərin (arvadın) nikah qeydə alınan zaman seçdiyi soyadı dəyişdirildikdə;

atanın adının dəyişdirilməsinin qeydə alınması hallarında onun uşaqlarının ata adı dəyişdikdə, valideynlərdən birinin və ya hər iki valideynin soyadı dəyişdirildikdə, yetkinlik yaşına çatmayan uşaqlarının soyadı dəyişdikdə;

atalıq müəyyən edildikdə, uşağın doğulması haqqında qeydə ata barəsində yeni məlumat yazıldıqda, doğum haqqında aktın qeydindən uşağın atası və ya anası haqqında məlumatlar çıxarıldıqda;

vətəndaşlar qanunvericilikdə nəzərdə tutulmuş qaydada adını, soyadını və ata adını dəyişdirdikdə;[6]

övladlığa götürmə ləğv edildikdə;

atalığın müəyyən edilməsi ləğv olunduqda;

vətəndaşlıq vəziyyəti *akt qeydlərindəki* səhvlər düzəldikdə;[7]

cinsin dəyişməsi ilə əlaqədar olaraq vətəndaşın adı, soyadı və ata adı dəyişdirildikdə;

vətəndaşlıq vəziyyəti *akt qeydlərində* valideynlərin soyadları, adları, ata adları və ya milliyyəti göstərilməmişsə;

vətəndaşlıq vəziyyəti *akt* qeydində qeyri-düzgün məlumatlar göstərilmişsə;[8]

qanunvericilikdə müəyyən edilən digər hallarda.

4. Vətəndaşlıq vəziyyəti *akt qeydlərində dəyişiklik* edilməsi üçün aşağıdakılar əsas hesab edilir:[9]

övladlığa götürmə barədə məhkəmənin qərarı;

nikahın pozulması barədə məhkəmənin qətnaməsi, qeydiyyat şöbələrinin və konsulluq idarələrinin rəyi, nikahın etibarsız sayılması barədə məhkəmənin qətnaməsi;

adın, soyadın və ata (ana) adının dəyişdirilməsi haqqında səlahiyyətli orqanların rəyi;

yetkinlik yaşına çatmayanın adının və soyadının dəyişdirilməsinə dair səlahiyyətli orqanın rəyi;
övladlığa götürmənin ləğv olunması haqqında məhkəmənin qətnaməsi;
atalığın müəyyən edilməsi haqqında məhkəmənin qərarı və ya valideynlərin ərizəsi;
atalığın müəyyən olunmasına dair məhkəmənin əvvəllər çıxarılmış qətnaməsinin ləğv edilməsi haqqında məhkəmənin qətnaməsi;
ərizə verən şəxsin daimi yaşayış yerindəki qeydiyyat şöbələrinin və konsulluq idarələrinin qanunvericiliyə uyğun olaraq qəbul etdiyi rəyi;
vətəndaşlıq vəziyyəti *akt qeydlərində dəyişiklik* edilməsi haqqında məhkəmənin *qərarı*;[10]
cinsin dəyişməsinin təsdiqi haqqında *tibb müəssisəsinin* rəyi;[11]
vətəndaşlıq vəziyyəti *akt qeydlərində dəyişiklik* edilməsinə əsas verən digər sənədlər.
5. Vətəndaşlıq vəziyyəti *akt qeydlərində dəyişiklik* edilməsi haqqında ərizələr ərizə verən şəxsin *seçdiyi yer üzrə* qeydiyyat şöbələrinə və konsulluq idarələrinə verilir.[12]
Cinsin dəyişməsi ilə əlaqədar olaraq ada, soyada və ata adına *dəyişiklik* edildikdə, ərizə, həmçinin cinsin dəyişməsi haqqında rəy vermiş *tibb müəssisəsinin* olduğu yerdə verilə bilər.[13]
Ölənlər barəsində vətəndaşlıq vəziyyəti *akt qeydlərində dəyişiklik* edilməsi haqqında ərizələr qanunvericiliyə uyğun olaraq varislərin, yetkinlik yaşına çatmayanların qanuni nümayəndələri tərəfindən verilir.[14]
6. Qeydiyyat şöbələri və konsulluq idarələri tərəfindən vətəndaşlıq vəziyyəti *akt qeydlərində dəyişiklik* edilməsi məsələsinə ərizənin daxil olduğu gündən bir ay müddətində baxılır.
Müstəsna hallarda qeydiyyat şöbəsinin rəisi və konsulluq idarələrinin rəhbəri tərəfindən ərizə verən şəxsə məlumat verilməklə, həmin müddət bir aydan çox olmayan müddətə uzadıla bilər.[15]
7. Başqa qeydiyyat şöbələrindan və konsulluq idarələrindən daxil olmuş materiallar üzrə *akt qeydlərində dəyişiklik* edilməsi, habelə şəhadətnamələrin verilməsi 15 gün müddətində həyata keçirilməlidir.[16]
8. Ərizə verən şəxsin *seçdiyi yer üzrə* qeydiyyat şöbələri və konsulluq idarələri təqdim olunmuş sənədlərə və yoxlamanın nəticələrinə əsasən vətəndaşlıq vəziyyəti *akt qeydlərində dəyişiklik* edilməsi haqqında rəy qəbul edir və ya vətəndaşlıq vəziyyəti *akt qeydlərində dəyişiklik* edilməsindən imtina edir. İmtinanın səbəbləri əsaslandırılmaqla ərizə verən şəxsə yazılı məlumat verilir.[17]
9. Bu əsas müddəaların 4-cü bəndində sadalanan sənədlər və vətəndaşlıq vəziyyəti *akt qeydlərində dəyişiklik* edilməsi haqqında qeydiyyat şöbələrinin və konsulluq idarələrinin rəyi toplanmış bütün materiallarla birlikdə icra üçün müvafiq *akt qeydi digər qeydiyyat şöbələrində və ya konsulluq idarələrində olduqda həmin* qeydin olduğu yerdəki qeydiyyat şöbələrinə və ya konsulluq idarələrinə 3 gün müddətində göndərilir.[18]
~~Vətəndaşlıq vəziyyəti aktlarının qeydindəki səhvlərin düzəldilməsi və ona dəyişikliklər edilməsi məhkəmənin *qərarı* əsasında aparıldıqda, qeydiyyat şöbələrinin və konsulluq idarələrinin rəyi tələb olunmur.~~[19]
10. Vətəndaşlıq vəziyyəti *akt qeydlərində dəyişiklik* edilməsi qeydin olduğu yerdə qeydiyyat şöbələri və konsulluq idarələri tərəfindən icra edilir.[20]
Vətəndaşlıq vəziyyəti *akt qeydlərində edilmiş dəyişikliklər* ərizə verən şəxslərə oxunur, onlar tərəfindən və dəyişikliyi aparan vəzifəli şəxs tərəfindən imzalanır, möhürlə təsdiq edilir. Bu zaman əvvəllər verilmiş şəhadətnamələr ləğv edilməklə vətəndaşlıq vəziyyəti aktının qeyd olunması haqqında ərizə verən şəxslərə yeni şəhadətnamə verilir və ya yeni şəhadətnamələrin ərizə verən şəxslərə təqdim olunması üçün rəyi qəbul edən qeydiyyat şöbələrinə və konsulluq idarələrinə 3 gün müddətində göndərilir.[21]
*10-1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 161.4-cü maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə vətəndaşlıq vəziyyəti akt qeydində dəyişiklik edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış daxil olduqda qeydiyyat şöbələri və ya konsulluq idarələri tərəfindən rəy tərtib edilmədən akt qeydinin qeydiyyat şöbələrində və ya konsulluq idarələrində saxlanılan nüsxəsinin üzərində zəruri dəyişiklik edilir, onun digər nüsxəsində də zəruri dəyişiklik edilməsi üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinə və ya Naxçıvan Muxtar Respublikası vətəndaşlıq vəziyyəti aktlarının arxivinə elektron qaydada bildiriş göndərilir. Dəyişiklik edilməli olan akt qeydi başqa qeydiyyat şöbələrində və ya konsulluq idarələrində saxlanıldıqda məhkəmənin qətnaməsindən çıxarış icra olunması üçün aidiyyəti üzrə həmin qeydiyyat şöbələrinə və ya konsulluq idarələrinə göndərilir.*[22]
11. Vətəndaşlıq vəziyyəti *akt qeydlərində edilmiş dəyişiklik haqqında Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinə* və Naxçıvan Muxtar Respublikası vətəndaşlıq vəziyyəti aktlarının arxivinə, qeydiyyat şöbələrinin arxivinə, konsulluq idarələrinə, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələrinə, şəxsin hərbi qeydiyyatda olduğu Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli *baş idarə*, idarə, şöbə və bölməsinə və daxili işlər orqanlarının müvafiq qurumlarına məlumat verilir.[23]
12. *Qeydiyyat* şöbələrinin və konsulluq idarələrinin *akt qeydində dəyişiklik etməkdən imtinasından* inzibati qaydada *və (və ya)* məhkəməyə şikayət edilə bilər.[24]

## *II. Vətəndaşlıq vəziyyəti akt qeydlərinin bərpası qaydası*[25]

13. Vətəndaşlıq vəziyyəti *akt qeydlərinin* bərpası bu cür qeydlərin həqiqətən olduğunu təsdiq edən sənədlər əsasında ərizə verənlərin *seçdiyi yer üzrə* qeydiyyat şöbələri və konsulluq idarələri tərəfindən icra edilir.[26]
14. İtmiş *akt qeydinin* qeydiyyat şöbələri və konsulluq idarələri tərəfindən bərpası mümkün olmadıqda, vətəndaşlıq vəziyyəti aktının qeydiyyatı faktı məhkəmə qaydasında müəyyən edilir.[27]
~~15. Vətəndaşlıq vəziyyəti aktlarının qeydləri qeydiyyat şöbələrində və konsulluq idarələrində qeydiyyat şöbələrinin və konsulluq idarələrinin arxivi və ya vətəndaşlıq vəziyyəti aktlarının Respublika Arxivi tərəfindən təsdiq edilir.~~[28]
16. Doğum, nikahın bağlanması, nikahın pozulması, övladlığa götürmə, atalığın müəyyən edilməsi, adın, soyadın və ata

adının dəyişdirilməsi, ölüm haqqında aktların itirilmiş qeydləri yalnız müvafiq qeydin əvvəllər olduğunu təsdiq edən sənədlər olduqda və ya məhkəmənin qətnaməsinə əsasən bərpa edilir.

*16-1. Xarici ölkədə tərtib edilmiş vətəndaşlıq vəziyyəti akt qeydini və ya onun mövcudluğu barədə məlumatı əldə etmək mümkün olmadıqda qeydiyyat şöbələri və ya konsulluq idarələri həmin akt qeydini bərpa edir və müvafiq şəhadətnamə verir.*[29]

*16-2. Ermənistan Respublikasında tərtib olunmuş vətəndaşlıq vəziyyəti akt qeydləri bərpa edilərkən yer adları Azərbaycanın tarixi toponimlərinə uyğun olaraq Azərbaycan Milli Elmlər Akademiyasının tövsiyələri nəzərə alınmaqla yazılır.*

*16-3. Vətəndaşlıq vəziyyəti akt qeydinin bərpa edilməsi barədə qeydiyyat şöbələri və ya konsulluq idarələri tərəfindən ilkin akt qeydinin olduğu qeydiyyat orqanına (Ermənistan Respublikası istisna olunmaqla) məlumat göndərilir.*

17. Qeydiyyat şöbələri və konsulluq idarələri tərəfindən vətəndaşlıq vəziyyəti*akt qeydlərinin* bərpası məsələsinə bu əsas müddəaların 6-cı və 7-ci bəndlərində nəzərdə tutulmuş müddətdə baxılır.[30]

18. Ərizə verən şəxsin *seçdiyi yer üzrə* qeydiyyat şöbələri və konsulluq idarələri təqdim olunmuş bu cür qeydlərin həqiqətən olduğunu təsdiq edən sənədlərə və yoxlamanın nəticələrinə əsasən vətəndaşlıq vəziyyəti *akt qeydinin* bərpası və ya bundan imtina olunması haqqında rəy qəbul edir və ya vətəndaşlıq vəziyyəti *akt* qeydinin bərpa edilməsindən imtina edir. İmtinanın səbəbləri əsaslandırılmaqla ərizə verən şəxsə yazılı məlumat verilir.[31]

~~Vətəndaşlıq vəziyyəti aktlarının itmiş qeydinin bərpası məhkəmənin qətnaməsi əsasında aparıldıqda, qeydiyyat şöbələrinin və konsulluq idarələrinin rəyi tələb olunmur.~~[32]

Ərizə sahibinin təqdim etdiyi sənədlərdə barəsində doğum haqqında aktın qeydi, bərpa edilən şəxsin yaşına dair məlumat yoxdursa və ya məlumat ziddiyyətlidirsə, ərizə verən şəxsin yaşı qanunvericilikdə nəzərdə tutulmuş qaydada müəyyən edilir.

19. Vətəndaşlıq vəziyyəti *akt qeydlərinin* bərpası haqqında qeydiyyat şöbələrinin və konsulluq idarələrinin rəyi toplanmış bütün materiallarla birlikdə icra üçün itirilmiş qeydin olduğu yerdəki qeydiyyat şöbələrinə və konsulluq idarələrinə 3 gün müddətində göndərilir.

20. Rəy toplanmış bütün materiallarla birlikdə itirilmiş qeydin olduğu yerdəki qeydiyyat şöbələrində və konsulluq idarələrində bərpa qeydiyyat kitabında qeydə alınır.

*21. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 162.3-cü maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə vətəndaşlıq vəziyyəti akt qeydlərinin bərpa edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış daxil olduqda qeydiyyat şöbələri və ya konsulluq idarələri tərəfindən rəy tərtib edilmədən akt qeydi bərpa olunur və maraqlı şəxs müraciət etdikdə ona müvafiq şəhadətnamə və ya arayış verilir.*[33]

22. Qeydiyyat şöbələri və konsulluq idarələri tərəfindən vətəndaşlıq vəziyyəti*akt qeydlərinin* bərpası məsələsi bu əsas müddəaların 10-cu, 11-ci və 12-ci bəndində nəzərdə tutulmuş qaydada həll edilir.

### III. Vətəndaşlıq vəziyyəti *akt* qeydlərinin ləğvi qaydası[34]

23. Vətəndaşlıq vəziyyəti aktlarının ilkin qeydlərinin ləğv olunması məhkəmənin qətnaməsi əsasında, bərpa və təkrar tərtib edilmiş qeydlərin ləğv olunması isə məhkəmənin qətnaməsi əsasında və ya qeydiyyat şöbələri və konsulluq idarələri tərəfindən icra edilir.

24. Ölmüş elan edilən və ya itkin düşmüş hesab edilən ər (arvad) gəlib çıxdıqda, məhkəmənin müvafiq qətnamələri ləğv olunmaqla, nikahın pozulması haqqında qeydin ləğv olunması onların birgə ərizəsinə əsasən nikahı pozmuş qeydiyyat şöbələri və konsulluq idarələri tərəfindən icra edilir.

25. Bərpa və ya təkrar tərtib edilmiş qeyd, həmçinin ilk qeydi aşkara çıxarmış qeydiyyat şöbələrinin və konsulluq idarələrinin təşəbbüsü ilə ləğv oluna bilər.

26. Vətəndaşlıq vəziyyəti *akt* qeydlərinin ləğv olunması haqqında ərizələr maraqlı şəxslər tərəfindən məhkəməyə, müvafiq hallarda isə ərizə verən şəxsin daimi yaşayış yerində qeydiyyat şöbələrinə və konsulluq idarələrinə verilir.[35]

Qeydiyyat şöbələri və konsulluq idarələri lazım gəldikdə ərizə verən şəxsdən və müvafiq orqanlardan əlavə sənədlər və məlumatlar tələb edə bilər.

27. Qeydiyyat şöbələri və konsulluq idarələri tərəfindən vətəndaşlıq vəziyyəti*akt* qeydlərinin ləğvi məsələsinə bu əsas müddəaların 6-cı və 7-ci bəndlərində nəzərdə tutulmuş müddətdə baxılır.

28. Ərizə verən şəxsin daimi yaşayış yerində qeydiyyat şöbələri və konsulluq idarələri təqdim olunmuş sənədlərə və yoxlamanın nəticələrinə əsasən vətəndaşlıq vəziyyəti *akt* qeydlərinin ləğv edilməsi haqqında rəy qəbul edir və ya vətəndaşlıq vəziyyəti *akt* qeydlərinin ləğv edilməsindən imtina edir. İmtinanın səbəbləri əsaslandırılmaqla ərizə verən şəxsə yazılı məlumat verilir.

*Azərbaycan Respublikası Ailə Məcəlləsinin 163.3-cü maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə vətəndaşlıq vəziyyəti akt qeydlərinin ləğv edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış daxil olduqda qeydiyyat şöbələri və ya konsulluq idarələri tərəfindən rəy tərtib edilmədən onun qeydiyyat şöbələrində və ya konsulluq idarələrində saxlanılan nüsxəsinin üzərində müvafiq qeyd aparılır, akt qeydinin digər nüsxəsinin də üzərində müvafiq qeydin aparılması üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinə və ya Naxçıvan Muxtar Respublikası vətəndaşlıq vəziyyəti aktlarının arxivinə elektron qaydada bildiriş göndərilir. Ləğv edilməli olan akt qeydi başqa qeydiyyat şöbələrində və ya konsulluq idarələrində saxlanıldıqda məhkəmənin qətnaməsindən çıxarış icra olunması üçün aidiyyəti üzrə həmin qeydiyyat şöbələrinə və ya konsulluq idarələrinə göndərilir.*[36]

29. Vətəndaşlıq vəziyyəti *akt* qeydlərinin ləğvi barəsində qeydiyyat şöbələrinin və konsulluq idarələrinin toplanmış bütün materialları birlikdə icra üçün müvafiq qeydin olduğu yerdəki qeydiyyat şöbələrinə və konsulluq idarələrinə 3 gün müddətində göndərilir.

30. Qeydiyyat şöbələri və konsulluq idarələri tərəfindən vətəndaşlıq vəziyyəti*akt* qeydinin ləğvi məsələsi bu əsas müddəaların 10-cu, 11-ci və 12-ci bəndində nəzərdə tutulmuş qaydada həll edilir.

***Qeyd.*** *Bu əsas müddəalara uyğun olaraq vətəndaşlıq vəziyyəti akt qeydlərində dəyişiklik edilməsinə, vətəndaşlıq vəziyyəti akt qeydlərinin bərpasına əsas verən sənədlər (ləğv edilməli şəhadətnamələr istisna olmaqla) barədə məlumatların elektron informasiya ehtiyatlarından əldə edilməsi mümkün olduqda, həmin sənədlərin təqdim edilməsi tələb olunmur.*[37]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2001-ci il 1 mart tarixli 52 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Akt kitablarının saxlanması
## QAYDASI VƏ MÜDDƏTLƏRİ

1. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitabları onların tərtib edildiyi vaxtdan 75 il müddətində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin ~~*rayon (şəhər)*~~ qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələrinin (bundan sonra — qeydiyyat şöbələri və konsulluq idarələri) arxivlərin və ya *Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Vətəndaşlıq vəziyyəti aktlaının reyestri xidmətində* və Naxçıvan Muxtar Respublikası vətəndaşlıq vəziyyəti aktlarının arxivində saxlanılır. Bu müddət qurtardıqdan sonra qeydiyyat kitabları saxlanılmaq üçün dövlət arxivinə verilir.[38]

2. Vətəndaşlıq vəziyyəti *akt qeydlərində dəyişiklik* edilməsi üçün əsas hesab edilən sənədlər, habelə itirilmiş qeyd bərpa olunarkən və ya ləğv edilərkən əsas götürülmüş sənədlər, yoxlama materialları, qeydiyyat şöbələrinin və konsulluq idarələrinin rəyləri qeydiyyat şöbələrində və konsulluq idarələrində 50 il müddətində saxlanılır.[39]

3. Akt kitabları illər üzrə nömrələnərək ardıcıl yığılmaqla saxlanılır.

4. Göstərilən müddət keçdikdən sonra sənədlər, materiallar və qərarlar müəyyən olunmuş qaydada məhv edilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2001-ci il 1 mart tarixli 52 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarının formaları və bu kitablardakı qeydlər əsasında verilən şəhadətnamələrin

## FORMALARI[40]

Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin ~~*rayon (şəhər)*~~ qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri (bundan sonra — qeydiyyat şöbələri və konsulluq idarələri) doğum, ölüm, nikahın bağlanması, nikahın pozulması, övladlığa götürmə, atalığın müəyyən edilməsi, adın, ata adının və soyadının dəyişdirilməsi forması 1 — 8 nömrəli əlavələrdə müəyyən olunan müvafiq vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarında qeyd edilir və forması 9 — *18* nömrəli əlavələrdə müəyyən olunan müvafiq şəhadətnamələr verir.[41]

Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitabları eyni formalı iki nüsxədən ibarətdir. Qeydiyyat aparıldıqdan sonra vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarının birinci nüsxəsi qeydiyyat şöbələrində və konsulluq idarələrində saxlanılır, ikinci nüsxə isə *Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Vətəndaşlıq vəziyyəti aktlaının reyestri xidmətinə* göndərilir.[42]

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli qərarı ilə təsdiq edilmişdir 1 nömrəli əlavə**
**qeydiyyat orqanının ştampı Doğum haqqında akt**
**Qeydi ________________ «______________» il**
[43]
**Nüsxə ___________**

| Uşaq haqqında məlumat | | |
|---|---|---|
| 1 | Soyadı | |
| 2 | Adı | |
| 3 | Atasının adı | |
| 4 | Cinsi | |
| 5 | Doğulduğu tarix | «____» __________________ il |
| 6 | Doğulduğu yer | Respublika (ölkə) ___________________________ rayon (şəhər) qəsəbə, kənd ______________________ |
| 7 | Neçə uşaq doğulmuşdur | |
| 8 | Uşaq diri və ya ölü doğulmuşdur | |
| 9 | Yeni doğulan uşaq daxil olmaqla ananın say üzrə neçə uşağı doğulub (ölü doğulan yox, ölənlər daxil olmaqla) | |
| 10 | Uşağın doğumunu təsdiq edən sənədlər | |

| | Ata haqqında məlumat | Ana haqqında məlumat |
|---|---|---|
| 11 | Soyadı | |
| 12 | Adı | |
| 13 | Atasının adı | |
| 14 | Doğulduğu tarix «____» ____________ il<br>Yaşı: _________ yaşı tamam olmuşdur | Doğulduğu tarix «___» __________ il<br>Yaşı: _______ yaşı tamam olmuşdur |
| 14-1. [44] | Doğulduğu yer | |
| 14-2. [45] | Vətəndaşlığı | |
| 14-3. [46] | Şəxsiyyətini təsdiq edən sənədi ______ ____ «___» _______ il | |
| 15 | Milliyyəti | |
| 16 [47] | Yaşayış yeri (ünvan dəqiq göstərilir) — respublika (ölkə) __________________ rayon (şəhər), qəsəbə, kənd ___________ küçə, bina, mənzil __________________ _____________ ildən daimi yaşayır | respublika (ölkə) _______________ rayon (şəhər), qəsəbə, kənd _______ küçə, bina, mənzil ______________ ___________ ildən daimi yaşayır |
| 17 | Vəzifəsi (iş yeri) | |
| 18 [48] | Təhsili (xətt çəkmək) — ibtidai ümumi orta tam orta; *peşə* orta ixtisas ali ixtisas | ibtidai ümumi orta tam orta; *peşə* orta ixtisas ali ixtisas |
| | natamam təhsil | natamam təhsil |
| 19 [49] | Ata haqqında qeydin əsasları:<br>a) nikah haqqında «___» _______ 20__ il tarixli _______ -li akt qeydi, qeydə alındığı qeydiyyat orqanının adı ___________, şəhadətnamənin nömrəsi _________________<br>b) atalığı müəyyən etmək haqqında «___» _______ 20__ il tarixli ______ -li akt qeydi, qeydə alındığı qeydiyyat orqanının adı __________________, şəhadətnamənin nömrəsi ______________<br>c) ananın «___» _________ 20__ il tarixli ərizəsi | |
| 20 | Məlumat verənin soyadı, adı, atasının adı, ünvanı və imzası | |
| 21 | Doğum qeydində iştirak edənlərin soyadı, adı, atasının adı və imzası | |
| 22 | Şəhadətnamə verilmişdir: seriyası _____________ ____________ | |
| 23 | Qeydlər üçün | |

M.Y. qeyidiyyat orqanının vəzifəli şəxsi[50] *mütəxəssis (kargüzar)*[51]

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il**
**1 mart tarixli 52 nömrəli qərarı ilə təsdiq edilmişdir**
**2 nömrəli əlavə qeydiyyat orqanının ştampı**
**Doğum haqqında bərpa aktının**[52]
**qeydi ______«____»___________ il**
**Nüsxə ____________**

| Bərpa olunan haqqında akt qeydi | |
|---|---|
| 1 | Soyadı |
| 2 | Adı |
| 3 | Atasının adı |
| 4 | Cinsi |
| 5 | Doğulduğu tarix «____» _________________ il |
| 6 | Doğulduğu yer respublika (ölkə) _____________ rayon (şəhər), qəsəbə, kənd ______________ |
| 7 [53] | Yaşayış yeri respublika (ölkə) ____________ rayon (şəhər), qəsəbə, kənd _________ _________________________________ küçə, bina, mənzil _______________________________ ______________________________ ildən daimi yaşayır |
| 8 | Vəzifəsi (iş yeri) |

| Ata haqqında məlumat | | Ana haqqında məlumat |
|---|---|---|
| 9 | Soyadı | |
| 10 | Adı | |
| 11 | Atasının adı | |
| 11-1. [54] | Doğulduğu tarix | |
| 11-2. [55] | Doğulduğu yer | |
| 11-3. [56] | Vətəndaşlığı | |
| 11-4. [57] | Yaşayış yeri | |
| 11-5. [58] | Şəxsiyyətini təsdiq edən sənədi ______ ____ «___» ______ il | |
| 12 | Milliyyəti | |
| 13 | Bərpa qeydinin əsasları | |
| 14 | Xəbər verənin imzası | |

| | |
|---|---|
| 15 | Şəhadətnamə verilmişdir: seriqası ____________ ___________ |
| 16 | Qeydlər üçün |

M.Y. qeydiyyat orqanının vəzifəli şəxsi[59] *mütəxəssis (kargüzar)*

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli qərarı ilə təsdiq edilmişdir 3 nömrəli əlavə qeydiyyat orqanının ştampı Övladlığa götürmə aktının qeydi ________ «____» ____________ il**
**Nüsxə ____________**

| Övladlığa götürülən haqqında məlumat | | |
|---|---|---|
| Övladlığa götürülməzdən əvvəl | | Övladlığa götürüləndən sonra |
| 1 | Soyadı | |
| 2 | Adı | |
| 3 | Atasının adı | |
| 3-1.[60] | Cinsi | |
| 4 | Doğulduğu tarix «____» _________ il | |
| 5 | Doğulduğu yer: respublika (ölkə) __________ | |
| | rayon (şəhər), qəsəbə, kənd ________________ | |
| | Doğum haqqında akt qeydinin tarixi və nömrəsi: «____» ___________________ il | |
| | akt qeydi __________________ | |

| Valideyn haqqında məlumat | | |
|---|---|---|
| Ata haqqında məlumat | | Ana haqqında məlumat |
| 6 | Soyadı | |
| 7 | Adı | |
| 8 | Atasının adı | |
| 9 | Milliyyəti | |
| 10 | Doğulduğu tarix «____» _________ il | |
| 10-1.[61] | Vətəndaşlığı | |
| 10-2.[62] | Doğulduğu yer | |
| 10-3.[63] | Doğulduğu yer | |
| 10-4.[64] | Şəxsiyyətini təsdiq edən sənədi ______ _____ «___» _______il | |
| Övladlığa götürən kişi haqqında məlumat | | Övladlığa götürən qadın haqqında məlumat |
| 11 | Soyadı | |
| 12 | Adı | |
| 13 | Atasının adı | |
| 14 | Milliyyəti | |
| 14-1.[65] | Vətəndaşlığı | |
| 14-2.[66] | Doğulduğu yer | |
| 14-3.[67] | Şəxsiyyətini təsdiq edən sənədi ______ _____ «___» _______il | |
| 15 | Doğulduğu tarix «___» ___________ il | |

| | | | |
|---|---|---|---|
| 16[68] | Yaşayış yeri (ünvan dəqiq göstərilir) | respublika (ölkə) _______________ ________________________________ rayon (şəhər), qəsəbə, kənd _______ ________________________________ küçə, bina, mənzil ______________ ________________________________ | respublika (ölkə) ___________ ____________________________ rayon (şəhər), qəsəbə, kənd _____ ____________________________ küçə, bina, mənzil ____________ ____________________________ |
| 17 | Övladlığa götürənlər valideyn kimi yazılırmı | | |
| 18 | Övladlığa götürmə barədə ____________ rayon (şəhər) məhkəməsinin «__» _________ il tarixli _________________ nömrəli qətnaməsi | | |
| 19 | Övladlığa götürənlərin imzası | | |
| 20 | Şəhadətnamə verilmişdir: seriyası __________________ ________________ | | |
| 21 | Qeyd üçün | | |

M.Y. qeydiyyat orqanının vəzifəli şəxsi *mütəxəssis (kargüzar)*

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin**
**2001-ci il 1 mart tarixli 52 nömrəli qərarı ilə**
**təsdiq edilmişdir 4 nömrəli əlavə qeydiyyat**
**orqanının ştampı Nikah haqqında aktın**
**qeydi ________ «____» ____________ il**
**Nüsxə _____________**

| Evlənənlər haqqında məlumatlar | | | |
|---|---|---|---|
| | | Kişi | Qadın |
| 1 | Soyadı evlənənədək<br>evlənəndən sonra | | |
| 2 | Adı | | |
| 3 | Atasının adı | | |
| 4 | Doğulduğu tarix | «___» _____________ 20___ il<br>Yaşı: __________ yaşı tamam olmuşdur | «___» ____________ 20___ il<br>Yaşı: _________ yaşı tamam olmuşdur |
| 5 | Doğulduğu yer | respublika (ölkə) __________<br>____________________________<br>rayon (şəhər), qəsəbə, kənd<br>___________________________ | respublika (ölkə) __________<br>____________________________<br>rayon (şəhər), qəsəbə, kənd<br>___________________________ |
| 6 | Milliyyəti | | |
| 6-1. [69] | Vətəndaşlığı | | |
| 7 | İş yeri (vəzifəsi) | | |
| 8 | Təhsili (xətt çəkmək) | ibtidai \| *peşə*<br>ümumi orta \| orta ixtisas<br>tam orta \| ali ixtisas<br>natamam təhsil | ibtidai \| *peşə*<br>ümumi orta \| orta ixtisas<br>tam orta \| ali ixtisas<br>natamam təhsil |
| 9 | Ailə vəziyyəti (xətt çəkmək) | evlənməmiş, dul, boşanmış | ərə getməmiş, dul, boşanmış |
| 10 | Ümumi uşaqlar haqqında məlumat | Soyadı, adı, doğum tarixi | Soyadı, adı, doğum tarixi |
| *10-1* [70] | *Qohumluq əlaqəsi haqqında məlumat – (babası və (və ya) nənəsi ümumi olanlar)* | *əmioğlu* | *əmiqızı* |
| | | *dayıoğlu* | *bibiqızı* |
| | | *bibioğlu* | *dayıqızı* |
| | | *xalaoğlu* | *xalaqızı* |
| | | *yoxdur* | *yoxdur* |
| 11 [71] | Yaşayış yeri (ünvan dəqiq göstərilir) | respublika (ölkə) _________<br>rayon (şəhər), qəsəbə, kənd<br>___________________________<br>küçə, bina, mənzil _________ | respublika (ölkə) _________<br>rayon (şəhər), qəsəbə, kənd<br>___________________________<br>küçə, bina, mənzil _________ |
| 12 | Şəxsiyyəti təsdiq edən sənədlər | | |
| 13 | Evlənənlərin imzaları:<br>evlənənədək<br>evlənəndən sonra | | |
| 14 | Şahidlərin soyadı, adı, atasının adı, imzası | | |
| 15 | Şəhadətnamə verilmişdir: seriyası _______________ ________________ | | |
| 16 | Qeydlər üçün | | |

M.Y. qeydiyyat orqanının vəzifəli şəxsi *mütəxəssis (kargüzar)*

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin**
**2001-ci il 1 mart tarixli 52 nömrəli qərarı ilə təsdiq**
**edilmişdir 5 nömrəli əlavə qeydiyyat orqanının**
**ştampı Atalığı müəyyən etmək haqqında aktın**
**qeydi ________ «____» ____________ il**
**Nüsxə _____________**

| Uşaq haqqında məlumatlar | |
|---|---|
| 1 | Soyadı |
| 2 | Adı |
| 3 | Atasının adı |
| 4 | Doğulduğu tarix |
| 5 | Cinsi |
| 6 | Doğulduğu yer — respublika (ölkə) _______________________________________________<br>rayon (şəhər), qəsəbə, kənd ____________________________________________________<br>doğum haqqında aktın qeydi _______________ «___» _________________ 20____ il |
| 6-1. [72] | Vətəndaşlığı |
| 6-2. [73] | Yaşayış yeri |
| 6-3. [74] | Şəxsiyyətini təsdiq edən sənədi ______ _____ «___» _______il |
| 7 | Atalıq müəyyən edildikdən sonra soyadı, adı və atasının adı |

| Valideyn haqqında məlumatlar | | |
|---|---|---|
| | Ata haqqında məlumat | Ana haqqında məlumat |

| | | | |
|---|---|---|---|
| 8 | Soyadı | | |
| 9 | Adı | | |
| 10 | Atasının adı | | |
| 11 | Doğulduğu tarix | | |
| 11-1. [75] | Doğulduğu yer | | |
| 11-2. [76] | Vətəndaşlığı | | |
| 12 | Milliyyəti | | |
| 13[77] | Yaşayış yeri | respublika (ölkə) __________ ___________________________ rayon (şəhər), qəsəbə, kənd ___________________________ | respublika (ölkə) _________ _________________________ rayon (şəhər), qəsəbə, kənd __________________________ |
| 14 | Vəzifəsi (iş yeri) | | |
| 15 | Valideynlərin şəxsiyyətlərini təsdiq edən sənədlər | | |
| Atalığı müəyyən etmək haqqında qeydin əsası | | | |
| 16 | Valideynlərin «___» __________________ 20___ il tarixli birgə ərizələri | | |
| | Ananın imzası _______________________ Atanın imzası ________________ | | |
| | Rayon (şəhər) məhkəməsinin «__» ______ 20___ il tarixli _________ nömrəli qətnaməsi | | |
| 17 | Ərizə verənin soyadı, adı, atasının adı, yaşadığı yer və imzası | | |
| 18 | Şəhadətnamə verilmişdir | seriya ___________________ ______________ | |
| 19 | Qeyd üçün | | |

M.Y. qeydiyyat orqanının vəzifəli şəxsi *mütəxəssis (kargüzar)*

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli qərarı ilə təsdiq edilmişdir 6 nömrəli əlavə qeydiyyat orqanının ştampı Soyadın , adın və ata adının dəyişdirilməsi haqqında aktın qeydi ______ «____» ___________ il**
**Nüsxə ____________**

| Dəyişənədək | | Dəyişəndən sonra |
|---|---|---|
| 1 | Soyadı | |
| 2 | Adı | |
| 3 | Atasının adı | |
| 4 | Doğulduğu tarix «___» _______________ il | |
| 5 | Doğulduğu yer respublika (ölkə) ___________ rayon (şəhər), qəsəbə, kənd __________ | |
| | Doğum haqqında aktın qeydi: «___» ________________ _________ | |
| 6 | Milliyyəti | |
| 6-1. [78] | Vətəndaşlığı | |
| 7 | Vəzifəsi (iş yeri) | |
| 8 [79] | Yaşayış yeri: respublika (ölkə) ____________ rayon (şəhər), qəsəbə, kənd ______ küçə, bina, mənzil ________________ «_____»_____________________ | |
| 9 | Soyadın, adın və ata adının dəyişdirilməsinin əsasları | |
| 10 | Şəxsiyyəti təsdiq edən sənədlər | |
| 11 | Ərizəçinin imzası | |
| 12 | Şəhadətnamə verilmişdir: seriyası ___________ _____________ | |
| 13 | Qeydlər üçün | |

M.Y. qeydiyyat orqanının vəzifəli şəxsi *mütəxəssis (kargüzar)*

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli qərarı ilə təsdiq edilmişdir 7 nömrəli əlavə qeydiyyat orqanının ştampı Nikahın pozulması haqqında aktın qeydi _______ «____» ___________ il**
**Nüsxə ____________**

| Nikahı pozulanlar haqqında məlumat | | | |
|---|---|---|---|
| | | Kişi | Qadın |
| 1 | Soyadı nikah pozulanadək nikah pozulandan sonra | | |
| 2 | Adı | | |

| | | | |
|---|---|---|---|
| 3 | Atasının adı | | |
| 4 | Doğulduğu tarix | «___» ____________ 20___ il<br>Yaşı : _____ yaşı tamam olmuşdur | «___» ____________ 20___ il<br>Yaşı : _____ yaşı tamam olmuşdur |
| 4-1.[80] | Doğulduğu yer | | |
| 4-2.[81] | Vətəndaşlığı | | |
| 5 | Milliyyəti | | |
| 6[82] | Yaşayış yeri | respublika (ölkə) _________<br>__________________________<br>rayon (şəhər), qəsəbə, kənd<br>__________________________<br>küçə, bina, mənzil ___________ | respublika (ölkə) ________<br>_________________________<br>rayon (şəhər), qəsəbə, kənd<br>_________________________<br>küçə, bina, mənzil ________ ___ |
| 7 | Vəzifəsi (iş yeri) | | |
| 8 | Təhsili (xətt çəkmək) | ibtidai — *peşə*<br>ümumi orta — orta ixtisas<br>tam orta — ali ixtisas<br>natamam təhsil | ibtidai — *peşə*<br>ümumi orta — orta ixtisas<br>tam orta — ali ixtisas<br>natamam təhsil |
| 9 | Nikahda olmuşdur (bir, təkrar) | «___» ________ il _______ | «___» ________ il ______ |
| *9-1*[83] | *Qohumluq əlaqəsi haqqında məlumat – (babası və (və ya) nənəsi ümumi olanlar)* | *əmioğlu*<br>*dayıoğlu*<br>*bibioğlu*<br>*xalaoğlu*<br>*yoxdur* | *əmiqızı*<br>*bibiqızı*<br>*dayıqızı*<br>*xalaqızı*<br>*yoxdur* |
| 10 | Ləğv edilən nikah qeyd edilmişdir | | |
| *11*[84] | *Ər-arvadın "___" ___________________ 20___ il tarixli birgə ərizəsi*<br>*Nikahın pozulması haqqında _______________________ rayon (şəhər) məhkəməsinin "___" ____________ 20___ il tarixli ____________ nömrəli qətnaməsi.*<br>*Qətnamənin qanuni qüvvəyə mindiyi tarix "___" ____________ 20___ il*<br>*18 yaşa qədər ümumi uşaqlarının sayı _______*<br>*Ərin (arvadın) xəbərsiz itkin düşmüş, yaxud fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi barədə _________ rayon (şəhər) məhkəməsinin "___" ____________ 20___ il tarixli ____________ nömrəli qətnaməsi.*<br>*Qətnamənin qanuni qüvvəyə mindiyi tarix "___" ____________ 20___ il* | | |
| 12 | Şəxsiyyəti təsdiq edən sənədlər | | |
| 13 | Nikahı pozulanların imzası | | |
| 14 | Şəhadətnamə verilmişdir | seriya _______ _______ | seriya il _____ _____ |
| 15 | Qeydlər üçün | | |

M.Y. qeydiyyat orqanının vəzifəli şəxsi *mütəxəssis (kargüzar)*

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli qərarı ilə təsdiq edilmişdir 8 nömrəli əlavə qeydiyyat orqanının ştampı Ölüm haqqında aktın qeydi ________ «____» ____________ il**
**Nüsxə ____________**

| | |
|---|---|
| 1 | Soyadı |
| 2 | Adı |
| 3 | Atasının adı |
| 4 | Cinsi |
| 5 | Milliyyəti |
| 5-1.[85] | Vətəndaşlığı |
| 5-2.[86] | Şəxsiyyətini təsdiq edən sənədi ______ _____ «___» _______il |
| 6 | Öldüyü tarix «___» ________________________ il |
| 7 | Öldüyü yer: respublika (ölkə) ______________ rayon (şəhər), qəsəbə, kənd _______________ |
| 8 | Ölümün səbəbi |
| 9 | Doğulduğu tarix və yer: «___» ________________ il respublika (ölkə) ___________________<br>rayon (şəhər), qəsəbə, kənd ____________________________________________________________<br>Yaşı: _______ yaşı tamam olmuşdur. Bir yaşadək uşaqlar üçün ________ ay ______ günü, həmçinin ananın neçənci _________ uşağı olduğunu göstərmək.<br>Ananın yaşı __________________________ |
| 10[87] | Sonuncu yaşayış yeri: respublika (ölkə) _________ rayon (şəhər), qəsəbə, kənd ____<br>__________________________________ küçə, bina, mənzil _________________________________ |
| 11 | Ailə vəziyyəti (xətt çəkmək) nikahda olmuş / nikahda olmamış / dul, boşanmış |
| 12 | Vəzifəsi (iş yeri) |
